***MƏTBUAT ÜÇÜN MƏLUMAT***
***Bakı 09.06.2022***

**“Qiymətli kağızların buraxılışı, Bakı Fond Birjasında listinq” mövzusunda təlim keçirilmişdir**

9 iyun 2022-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) və Bakı Fond Birjası tərəfindən yerli şirkətlər üçün “Qiymətli kağızların buraxılışı və Bakı Fond Birjasında listinq” mövzularında onlayn təlim keçirildi. Təlimdə Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı Fond Birjası, AzFinance İnvestisiya şirkəti və Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) əməkdaşları tərəfindən kapital bazarı ilə bağlı ümumi məlumat, qiymətli kağızların buraxılışı, onların birjada listinqə alınması proseduru və Listinq Məsləhət Proqramı ilə bağlı ətraflı məlumat verilmişdir. Tədbirin əsas məqsədi yerli şirkətlərə alternativ maliyyələşmə üsullarını təqdim etmək və bu istiqamətdə beynəlxalq təcrübəni bölüşməkdir.

Qeyd edək ki, Bakı Fond Birjası əməkdaşlıq etdiyi investisiya şirkətləri və Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) ilə birlikdə kapital bazarı haqqında məlumatlılığın artırılması, yerli biznes mühitində qiymətli kağız buraxılışı təcrübəsinin aşılanması və fond birjasında listinqin təşviq edilməsi məqsədi ilə mütəmadi olaraq ödənişsiz təlimlər təşkil edir.

Tel: (99412) 4989820; email: business@bse.az ; http://www.bfb.az;
Address: 2A Hasan bay Zardabi, Baku, Azerbaijan, AZ 1141